# Azərsun Holdinq MMC və onun törəmə müəssisələri

31 dekabr 2023-ci il tarixində başa çatan il üzrə
konsolidasiya edilmiş maliyyə hesabatları

Grant Thornton

Grant Thornton Audit
and Accounting Limited
(Dubai Branch)

The Office 5
Level 3
Office 303
One Central, DWTC
Dubai, UAE
P.O. Box 1620

T +9971 4 388 9925
F. +9971 4 388 9915

# Müstəqil auditorun hesabatı

**Azərsun Holdinq MMC və onun törəmə müəssisələrinin təsisçilərinə**

## Konsolidasiya edilmiş maliyyə hesabatlarının auditi üzrə hesabat

### Rəy

Biz Azərsun Holdinq MMC-nin və onun törəmə müəssisələrinin ("Qrup") 31 dekabr 2023-ci il tarixinə təqdim edilən konsolidasiya edilmiş maliyyə vəziyyəti haqqında hesabatları, həmin tarixdə başa çatmış il üzrə konsolidasiya edilmiş mənfəət və ya zərər və sair məcmu gəlir haqqında hesabat, konsolidasiya edilmiş kapitalda dəyişikliklər və pul vəsaitlərinin hərəkəti haqqında hesabatlardan, eləcə də, Mühasibat uçotu siyasəti haqqında əsas məlumatlar daxil olmaqla, konsolidasiya edilmiş maliyyə hesabatlarına qeydlərdən ibarət olan konsolidasiya edilmiş maliyyə hesabatlarının auditini aparmışıq.

Bizim fikrimizcə, konsolidasiya edilmiş maliyyə hesabatları, 31 dekabr 2023-ci il tarixinə Qrupun konsolidasiya edilmiş maliyyə vəziyyəti haqqında hesabatı və həmin tarixdə başa çatan il üzrə mənfəət və ya zərər və sair məcmu gəlir haqqında hesabatı və pul vəsaitlərinin hərəkəti haqqında hesabatı Beynəlxalq Maliyyə Hesabatları Standartlarına (BMHS) uyğun olaraq düzgün və ədalətli şəkildə əks etdirilmişdir.

### Rəy üçün əsas

Biz audit yoxlamasını Beynəlxalq Audit Standartları əsasında aparmışıq. Bu standartlar çərçivəsində nəzərdə tutulan öhdəliklərimiz hesabatımızın *Konsolidasiya edilmiş Maliyyə Hesabatları üzrə Auditorların Öhdəlikləri* bölməsində əks olunmuşdur. Biz *Peşəkar Mühasiblərin Etika Məcəlləsi üzrə Beynəlxalq Etika Standartları (Beynəlxalq Müstəqil Standartlar daxil olmaqla)* Şurasının (İESBA) prinsiplərinə uyğun olaraq Qrupdan ayrıyıq və digər etika öhdəliklərimizi bu tələblər və İESBA Kodeksi əsasında həyata keçirmişik. Biz rəyimizin əsasını təşkil edən yetərli və müvafiq audit dəlilləri əldə etdiyimizi hesab edirik.

### Rəhbərliyin və maliyyə hesabatlarının idarə edilməsi üzrə məsul tərəflərin öhdəlikləri

Rəhbərlik bu maliyyə hesabatlarının Beynəlxalq Maliyyə Hesabatı Standartlarına uyğun olaraq hazırlanmasına, obyektiv şəkildə təqdim edilməsinə, eləcə də, hesabatlarının saxtakarlıq və ya səhvlərdən irəli gələn əhəmiyyətli təhriflər olmadan tərtib edilməsi üçün zəruri hesab etdiyi daxili nəzarət sisteminə görə məsuliyyət daşıyır.

Konsolidasiya edilmiş maliyyə hesabatları hazırlayarkən rəhbərlik Qrupun daimilik prinsipi əsasında işini davam etdirmə potensialını qiymətləndirmək, müvafiq olduqda daimilik prinsipi ilə bağlı məsələləri açıqlamaq və rəhbərlik Qrupu ləğv etmək və ya fəaliyyətini dayandırmaq istəyənədək, yaxud bunu etmək üçün real seçimi olmayanadək hesabatlılığın daimilik prinspindən istifadə etmək üzrə məsuliyyət daşıyır.

İdarəçilik üzrə məsul tərəflər Qrupun maliyyə hesabatvermə prosesinə nəzarət etmə öhdəliyi daşıyır.

### Digər Məlumatlar

Digər məlumatlara görə direktorlar və rəhbərlik məsuliyyət daşıyır. Digər məlumatlar bu audit hesabatının tərtib edildiyi tarixdən əvvəl aldığımız direktorların hesabatında yer alır.

Konsolidə edilmiş maliyyə hesabatları ilə bağlı fikrimiz, direktorların hesabatında göstərilən maliyyə məlumatları istisna olmaqla, digər məlumatlara şamil edilmir və buna görə də ona əsaslanan heç bir zəmanət və ya rəy bildirmirik.

# Müstəqil auditorun hesabatı (davamı)

**Azərsun Holdinq MMC və onun törəmə müəssisələrinin təsisçilərinə (davamı)**

**Konsolidasiya edilmiş maliyyə hesabatlarının auditi üzrə hesabat (davamı)**

Konsolidasiya edilmiş maliyyə hesabatlarının auditi ilə əlaqədar olaraq, bizim vəzifəmiz yuxarıda göstərilən digər məlumatlarla tanış olmaq və eyni zamanda digər məlumatların əsaslı şəkildə konsolidasiya edilmiş maliyyə hesabatlarına, Audit zamanı əldə etdiyimiz biliklərə zidd olub-olmaması və ya başqa şəkildə əhəmiyyətli dərəcədə təhrif edilməməsi məsələsinə baxmaqdır. Bu audit rəyinin tərtib edildiyi tarixdən əvvəl əldə etdiyimiz digər məlumatlarla gördüyümüz işlərə əsasən bu digər məlumatların əhəmiyyətli dərəcədə təhrif olunduğu qənaətinə gəlsək, bu faktı bildirməliyik. Bununla bağlı bizə məlumat verəcək heç nəyimiz yoxdur.

**Maliyyə hesabatlarının auditi üzrə auditorun öhdəlikləri**

Bizim məqsədimiz bütövlükdə maliyyə hesabatlarında saxtakarlıq və ya səhvlərdən dolayı əhəmiyyətli təhriflərin mövcud olmadığına təminat vermək və rəyimizi əks etdirən auditor hesabatı təqdim etməkdir. Təminat olduqca önəmli olsa da, Beynəlxalq Audit Standartlarına uyğun aparılmış audit yoxlamasının hər zaman mövcud olan təhrifləri aşkarlayacağına zəmanət vermir. Təhriflər saxtakarlıq və ya səhvlərdən irəli gələ və bu konsolidasiya edilmiş maliyyə hesabatları əsasında verilmiş iqtisadi qərarlara ciddi təsir göstərə bilər.

Beynəlxalq Audit Standartları əsasında aparılan audit yoxlamasının bir hissəsi kimi biz audit prosesində peşəkar mühakimə və peşəkar skeptisizm prinsipi tətbiq edirik. Biz həmçinin:

- Konsolidasiya edilmiş maliyyə hesabatlarında saxtalaşdırma və ya səhvlərdən irəli gələn ciddi təhrif risklərini aşkarlayır və təhlil edir, bu risklərə cavab verən audit prosedurları hazırlayır və icra edir və rəyimiz üçün əsas təşkil edəcək kafi və müvafiq dəlil toplayırıq. Saxtakarlıqdan irəli gələn ciddi təhrifləri aşkarlamama riski səhvlərdən qaynaqlanan riskdən daha yüksəkdir, belə ki saxtakarlıq, əlbir olma, saxtalaşdırma, məqsədli buraxma, təhrif və ya daxili nəzarətin yetərsizliyi kimi hallarla əlaqəli olur.

- Qrupun daxili nəzarətinin effektivliyinə dair rəy bildirmək məqsədi ilə deyil, şəraitə uyğun olan audit prosedurlarını tərtib etmək üçün auditə aid daxili nəzarət haqqında rəy əldə edirik.

- İstifadə olunan uçot siyasətlərinin, uçot smetalarının və rəhbərlik tərəfindən açıqlanan əlaqədar məlumatların uyğunluğunu təhlil edirik.

- Rəhbərliyin uçotun davamlılıq prinsipindən istifadəsinin uyğunluğuna və Qrupun davamlılıq prinsipini davam etdirmə imkanına dair ciddi şübhələr yarada biləcək hadisə və ya şərtlərlə əlaqədar ciddi qeyri-müəyyənliyin olub olmaması ilə bağlı əldə edilmiş dəlillər əsasında yekun rəy bildiririk. Əgər əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olduğu qənaətinə gəlsək, biz auditor hesabatımızda diqqəti konsolidasiya edilmiş maliyyə hesabatlarındakı müvafiq açıqlamalara yönəltməli və ya belə açıqlamalar qeyri-adekvat olarsa, rəyimizi dəyişdirməliyik. Bizim yekun rəylərimiz auditor hesabatımızın hazırlanma tarixinədək əldə edilmiş audit dəlillərinə əsaslanır. Bununla belə, gələcək hadisə və şərtlər Qrupun işində davamlılıq prinsipini poza bilər.

- Konsolidasiya edilmiş maliyyə hesabatlarının, o cümlədən açıqlanan məlumatların ümumi təqdimatı, strukturu və məzmunu, həmçinin hesabatların obyektiv təqdimatının əsasını təşkil edən başlıca əqd və hadisələri əks etdirib-etdirmədiyini təhlil edirik.

- Konsolidasiya edilmiş maliyyə hesabatları üzrə rəy bildirmək üçün Qrup daxilindəki qurumlar və işgüzar fəaliyyətlər haqqında maliyyə məlumatları ilə bağlı lazımı müvafiq audit dəlili əldə edirik. Biz qrupun audit yoxlamasının istiqamətləndirilməsi, nəzarəti və icrası üzrə məsuliyyət daşıyırıq. Biz audit rəyimizə görə tam şəkildə cavabdehik.

Biz auditin və mühüm audit tapıntılarının, o cümlədən audit yoxlaması zamanı daxili nəzarətdə aşkarladığımız mühüm çatışmazlıqların nəzərdə tutulan əhatə dairəsi və zamanlaması ilə bağlı idarəetmə üzrə məsul tərəflərlə əlaqədə oluruq.

**GRANT THORNTON**
**Baku, Azerbaijan**
**28 İyun 2024-ci il**

## Konsolidə edilmiş maliyyə vəziyyəti haqqında hesabat
## 31 dekabr 2023-ci il tarixinə

| | Qeyd | 2023 | 2022 |
|---|---|---|---|
| **Aktivlər** | | **AZN** | AZN |
| **Uzunmüddətli aktivlər** | | | |
| Qeyri-maddi aktivlər | 5 | **15,605,402** | 8,604,007 |
| Torpaq, tikili və avadanlıqlar | 6 | **274,579,542** | 267,297,736 |
| Aktivlərdən istifadə etmə hüququ | 6.1 | **55,145,891** | 170,175,215 |
| Bioloji aktivlər | 7 | **10,625,060** | 9,750,492 |
| Ədalətli dəyəri digər məcmu gəlirdə tanınan maliyyə aktivləri | 8 | **17,951,359** | 14,959,330 |
| Asılı müəssisələrə investisiya | 9 | **2,144,517** | 218,417 |
| İnvestisiya əmlakı | 10 | **19,364,996** | 20,822,576 |
| Təxirə salınmış vergi üzrə aktivlər | 28 | **6,809,953** | 6,834,858 |
| | | **402,226,720** | 498,662,631 |
| **Cari aktivlər** | | | |
| Mal-material ehtiyatları | 12 | **332,167,153** | 443,423,125 |
| Ticarət və digər debitor borcları | 13 | **159,198,775** | 152,352,196 |
| Əlaqəli tərəflərdən alınacaq vəsaitlər | 14 | **66,258,051** | 3,954,422 |
| Əlaqəli tərəflərə verilən borclar | 14 | **13,000,000** | 14,953,740 |
| Qısa müddətli borc öhdəlikləri | 15 | **4,000,000** | 200,000 |
| Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri | 16 | **94,749,913** | 49,864,508 |
| | | **669,373,892** | 664,747,991 |
| **Cəmi aktivlər** | | **1,071,600,612** | 1,163,410,622 |
| **Kapital və öhdəliklər** | | | |
| **Kapital** | | | |
| Ana müəssisənin təsisçilərinə aid kapital: | | | |
| Nizamnamə kapitalı | 17 | **127,626,667** | 127,626,667 |
| Ədalətli dəyəri digər məcmu gəlirdə tanınan maliyyə aktivləri üzrə ədalətli dəyər ehtiyatı | 8 | **(4,075,788)** | (6,469,411) |
| Digər ehtiyatlar | 4.2 | **(35,073,144)** | (98,041,072) |
| Bölüşdürülməmiş mənfəət | | **517,925,745** | 371,069,529 |
| | | **606,403,480** | 394,185,713 |
| Qeyri-nəzarət payı | | **31,360,998** | 22,575,728 |
| **Cəmi kapital** | | **637,764,478** | 416,761,441 |

## Konsolidə edilmiş maliyyə vəziyyəti haqqında hesabat (davamı)
## 31 dekabr 2023ci il tarixinə

| | Qeyd | 2023<br>AZN | 2022<br>AZN |
|---|---|---|---|
| **Öhdəliklər** | | | |
| **Uzunmüddətli öhdəliklər** | | | |
| Borc vəsaitləri | 18 | **30,183,333** | 24,267,695 |
| İcarə öhdəlikləri | 19 | **50,754,004** | 161,115,029 |
| Maliyyə icarəsi üzrə təxirə salınmış gəlir | 20 | **-** | 11,044 |
| | | **80,937,337** | 185,393,768 |
| **Cari öhdəliklər** | | | |
| Borc vəsaitləri | 18 | **121,480,998** | 224,633,336 |
| İcarə öhdəlikləri | 19 | **10,473,031** | 28,115,369 |
| Ticarət və digər kreditor borcları | 21 | **180,112,441** | 174,706,309 |
| Əlaqəli tərəflərə ödəniləcək vəsaitlər | 14 | **40,345,627** | 101,793,533 |
| Əlaqəli tərəflərdən alınmış borclar | 14 | **486,700** | 31,986,700 |
| Maliyyə icarəsi üzrə təxirə salınmış gəlir | 20 | **-** | 20,166 |
| | | **352,898,797** | 561,255,413 |
| **Cəmi öhdəliklər** | | **433,836,134** | 746,649,181 |
| **CƏMI KAPITAL VƏ ÖHDƏLIKLƏR** | | **1,071,600,612** | 1,163,410,622 |

31 dekabr 2023-ci il tarixində başa çatan il üzrə konsolidasiya edilmiş hazırkı maliyyə hesabatları (o cümlədən müqayisəli rəqəmlər) İdarə Heyəti tərəfindən 28 İyun 2024-ci il tarixində təsdiq edilmiş və onların adından imzalanmışdır:

**Savaş Uzan Mehmet**
Baş direktor

**Rüfət Əkbərov**
Mühasibatlıq direktoru

1-34-cü qeydlər konsolidasiya edilmiş bu maliyyə hesabatlarının ayrılmaz hissəsidir.

**Azərsun Holdinq MMC və onun törəmə müəssisələri**
**Konsolidə edilmiş maliyyə hesabatları**

## Konsolidə edilmiş məcmu gəlir haqqında hesabat
## 31 dekabr 2023-ci il tarixində başa çatan il üzrə

| | Qeyd | 2023<br>AZN | 2022<br>AZN |
|---|---|---|---|
| Gəlir | 22 | **1,810,868,438** | 1,825,368,733 |
| Satışların və xidmətlərin maya dəyəri | 23 | **(1,347,678,684)** | (1,360,287,198) |
| **Məcmu mənfəət** | | **463,189,754** | 465,081,535 |
| Satış və paylama xərcləri | 24 | **(93,475,854)** | (100,114,201) |
| İnzibati və ümumi xərclər | 25 | **(324,869,725)** | (298,620,131) |
| Maliyyə xərcləri – xalis | 26 | **(22,456,372)** | (23,971,495) |
| Asılı müəssisəyə investisiyadan mənfəət payı - xalis | 9 | **(120,545)** | (111,583) |
| Məzənnə fərqindən yaranan zərər – xalis | | **(3,289,459)** | (2,187,748) |
| Digər gəlir – xalis | 27 | **67,932,097** | 2,663,143 |
| Törəmə müəssisələrin satın alınması üzrə sövdələşmə ödənişi | | **-** | 274,056 |
| **Mənfəət vergisindən əvvəlki mənfəət** | | **86,909,896** | 43,013,576 |
| Mənfəət vergisi | 28 | **(29,171,005)** | (21,550,214) |
| Təxirə salınmış vergi | 28 | **573,501** | (6,266,535) |
| **İl üzrə mənfəət** | | **58,312,392** | 15,196,827 |
| **İl üzrə digər məcmu zərər** | | | |
| **Növbəti dövrlərdə mənfəət və ya zərərdə yenidən təsnifləşdiriləcək digər məcmu gəlir** | | | |
| Ədalətli dəyəri digər məcmu gəlirdə tanınan maliyyə aktivləri üzrə kəsir | 8 | **2,992,029** | 1,107,956 |
| Təxirə salınmış vergi öhdəliyi | 28 | **(598,406)** | (221,591) |
| **Cəmi il üzrə digər məcmu zərər** | | **2,393,623** | 886,365 |
| **İl üzrə cəmi məcmu gəlir** | | **60,706,015** | 16,083,192 |
| **İl üzrə mənfəət aiddir:** | | | |
| Ana Şirkətin təsisçilərinə | | **63,100,616** | 24,197,330 |
| Qeyri-nəzarət payına – zərərin payı | | **(4,788,224)** | (9,000,503) |
| | | **58,312,392** | 15,196,827 |
| **İl üzrə cəmi məcmu gəlirə aiddir:** | | | |
| Ana Şirkətin təsisçilərinə | | **65,494,239** | 25,083,695 |
| Qeyri-nəzarət payına – zərərin payı | | **(4,788,224)** | (9,000,503) |
| | | **60,706,015** | 16,083,192 |

**Savaş Uzan Mehmet**
Baş direktor

**Rüfət Əkbərov**
Mühasibatlıq direktoru

1-34-cü qeydlər konsolidasiya edilmiş bu maliyyə hesabatlarının ayrılmaz hissəsidir.

## Konsolidə edilmiş kapitalda dəyişikliklər haqqında hesabat
## 31 dekabr 2023-ci il tarixində başa çatan il üzrə

| | Nizamnamə kapitalı | Ədalətli dəyəri digər məcmu gəlirdə tanınan maliyyə aktivləri üzrə ədalətli dəyər ehtiyatı | Digər ehtiyatlar | Bölüşdürülməmiş mənfəət | Cəmi ana şirkətin sahibinə aid | Qeyri-nəzarət iştirak payı | Cəmi kapital |
|---|---|---|---|---|---|---|---|
| | AZN | AZN | AZN | AZN | AZN | AZN | AZN |
| **1 yanvar 2023-cı il tarixinə qalıq** | 127,626,667 | (6,469,411) | (98,041,072) | 371,069,529 | 394,185,713 | 22,575,728 | 416,761,441 |
| İl üzrə mənfəət | - | - | - | 63,100,616 | 63,100,616 | (4,788,224) | 58,312,392 |
| Digər məcmu gəlir | - | 2,393,623 | - | - | 2,393,623 | - | 2,393,623 |
| **Cəmi məcmu gəlir** | - | 2,393,623 | - | 63,100,616 | 65,494,239 | (4,788,224) | 60,706,015 |
| Törəmə şirkətin silinməsindən köçürmə | - | - | 62,967,928 | (62,967,928) | - | - | - |
| Törəmə müəssisının silinməsindən gəlir(qeyd 1.4) | - | - | - | 146,723,528 | 146,723,528 | - | 146,723,528 |
| Qeyri-nəzarət payının kapitalının artması | - | - | - | - | - | 34,495,000 | 34,495,000 |
| Törəmə şirkətin silinməsində qeyri-nəzarət payının tanınmasının dayandırılması | - | - | - | - | - | (20,921,506) | (20,921,506) |
| **31 dekabr 2023-ci il tarixinə qalıq** | 127,626,667 | (4,075,788) | (35,073,144) | 517,925,745 | 606,403,480 | 31,360,998 | 637,764,478 |

## Konsolidə edilmiş kapitalda dəyişikliklər haqqında hesabat (davamı)
## 31 dekabr 2023-ci il tarixində başa çatan il üzrə

| | Nizamnamə kapitalı | Ədalətli dəyəri digər məcmu gəlirdə tanınan maliyyə aktivləri üzrə ədalətli dəyər ehtiyatı | Digər ehtiyatlar | Bölüşdürülməmiş iş mənfəət | Cəmi ana şirkətin sahibinə aid | Qeyri-nəzarət iştirak payı | Cəmi kapital |
|---|---|---|---|---|---|---|---|
| | AZN | AZN | | AZN | AZN | AZN | AZN |
| **1 yanvar 2022-cı il tarixinə qalıq** | 127,626,667 | (7,355,776) | (98,041,072) | 344,805,453 | 367,035,272 | 28,887,212 | 395,922,484 |
| İl üzrə mənfəət | - | - | - | 24,197,330 | 24,197,330 | (9,000,503) | 15,196,827 |
| Digər məcmu gəlir | - | 886,365 | - | - | 886,365 | - | 886,365 |
| **Cəmi məcmu gəlir** | - | 886,365 | - | 24,197,330 | 25,083,695 | (9,000,503) | 16,083,192 |
| Qeyri-nəzarət payının satınalınmasından sonra qeyri-nəzarət payından bölüşdürülməmiş mənfəətə köçürmə | - | - | - | 2,066,746 | 2,066,746 | 2,666,519 | 4,733,265 |
| Qeyri-nəzarət payının yaranması | - | - | - | - | - | 22,500 | 22,500 |
| **31 dekabr 2022-ci il tarixinə qalıq** | 127,626,667 | (6,469,411) | (98,041,072) | 371,069,529 | 394,185,713 | 22,575,728 | 416,761,441 |

**Savaş Uzan Mehmet**
Baş direktor

**Rüfət Əkbərov**
Mühasibatlıq direktoru

1-34-cü qeydləri konsolidasiya edilmiş bu maliyyə hesabatlarının ayrılmaz hissəsidir.

## Konsolidə edilmiş pul vəsaitlərinin hərəkəti haqqında hesabat
## 31 dekabr 2023-ci il tarixində başa çatan il üzrə

| | Qeyd | 2023 | 2022 |
|---|---|---|---|
| | | **AZN** | AZN |
| **ƏMƏLİYYAT FƏALİYYƏTLƏRİ** | | | |
| Mənfəət vergisindən əvvəlki mənfəət | | **86,909,896** | 43,013,576 |
| Qeyri-pul və qeyri-əməliyyat fəaliyyətinə aid maddələrə düzəlişlər | 29 | **93,480,881** | 125,066,638 |
| Dövriyyə kapitalında xalis dəyişikliklər | 29 | **18,647,515** | (28,163,841) |
| | | **199,038,292** | 139,916,373 |
| Ödənilmiş mənfəət vergisi | | **(29,171,005)** | (21,550,214) |
| Əməliyyat fəaliyyətləri üzrə daxil olan xalis pul vəsaitləri | | **169,867,287** | 118,366,159 |
| **İNVESTİSİYA FƏALİYYƏTLƏRİ** | | | |
| Qeyri-maddi aktivlərin alınması | 5 | **(10,366,223)** | (1,185,002) |
| Torpaq, tikili və avadanlıqların alınması (Aktivlərdən istifadə etmə hüququ istisna olmaqla) | | **(79,772,658)** | (75,128,274) |
| Torpaq, tikili və avadanlıqların xaric edilməsindən əldə edilən mədaxil | | **5,782,597** | 11,419,556 |
| Bioloji aktivlərin alınması – xalis | | **(778,173)** | (2,752,154) |
| Törəmə müəssisələrin satın alınması üçün ödəniş - satınalmadan əldə edilmiş nağd pul çıxılmaqla | | **-** | 11,105 |
| Asılı şirkətlərə investisiya – xalis | | **(2,046,645)** | - |
| Törəmə müəssisənin xaric edilməsi | | **(3,850,083)** | - |
| İnvestisiya fəaliyyətləri üzrə istifadə edilən xalis pul vəsaitləri | | **(91,031,185)** | (67,634,769) |
| **MALİYYƏLƏŞDİRMƏ FƏALİYYƏTLƏRİ** | | | |
| Borc vəsaitlərindən mədaxil | 18 | **221,666,036** | 113,809,569 |
| Borc vəfaiz öhdəliklərinin ödənilməsi | 18 | **(226,484,145)** | (115,686,341) |
| İcarə öhdəliklərinin ödənilməsi | | **(30,869,653)** | (30,706,437) |
| Maliyyələşdirmə fəaliyyətləri üzrə daxil olan xalis pul vəsaitləri | | **(35,687,762)** | (32,583,209) |
| Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentlərində xalis dəyişiklik | | **43,148,340** | 18,148,181 |
| İlin əvvəlinə pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri | | **37,046,658** | 18,898,477 |
| **İlin sonuna pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri** | 16 | **80,194,998** | 37,046,658 |

**Savaş Uzan Mehmet**
Baş icraçı direktor

**Rüfət Əkbərov**
Mühasibatlıq direktoru

1-34-cü qeydlər konsolidasiya edilmiş bu maliyyə hesabatlarının ayrılmaz hissəsidir.